**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNƏ TƏSİRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6104.01 – Pedaqoji psixologiya

Elm sahəsi: Psixologiya

İddiaçı: **Hüseyin Güloğlan oğlu Mirzəyev**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2021**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** psixologiya elmləri doktoru, professor
**Ramiz İbrahim oğlu Əliyev**

**Rəsmi opponentlər:** psixologiya elmləri doktoru, professor
**Qızxanım Nizaməddin qızı Qəhrəmanova**

psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Yəhya qızı Quliyeva**

psixologiya üzrə fəlsəfə doktoru
**Şahnaz Mustafa qızı Quliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** psixologiya elmləri doktoru, professor
________________ **Kamilə Ramiz qızı Əliyeva**

**Dissertasiya şurasının elmi katibi:** psixologiya üzrə fəlsəfə doktoru
________________ **Müşviq Hüseyn oğlu Mustafayev**

**Elmi seminarın sədri:** psixologiya üzrə elmlər doktoru, dosent
________________ **Rəşid Vəkil oğlu Cabbarov**

İmzanı təsdiq edirəm
BAKI DÖVLƏT UNİVERSİTETİNİN
ELMİ KATİBİ
________ prof. V.M.SALMANOV
imzası
«28» ____XII____ 2021 il

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Pedaqoji-psixoloji tədqiqatlar sübut edir ki, təlim-tərbiyənin səmərəliliyinin artırılması üçün eyni zamanda müəllim-şagird münasibətlərinin müasir tələblər əsasında qurulması pedaqoji fəaliyyətin mühüm hissəsidir. Pedaqoji prosesdə isə təhsil iştirakçıları arasında ən humanist ünsiyyət üslubu olan dialoji ünsiyyətə üstünlük verilməli, təhsil tərbiyəedici və inkişafetdirici xarakter daşımalıdır. Belə olduqda, müəllim yalnız bilikvermə funksiyasını deyil, eyni zamanda şagirdlərdə fərdi və sosial əhəmiyyətli keyfiyyətlərin, təfəkkürün, emosional-hissi, yaradıcı fəaliyyətin inkişaf etdirilməsini təmin etmiş olur. Bunlara isə yeni təlim texnologiyalarını tətbiq etməklə nail olmaq mümkündür.

Yeni pedaqoji təfəkkür şagirdin bir şəxsiyyət kimi formalaşdırılmasını təhsil sisteminin başlıca vəzifəsi sayır. Bu köklü vəzifənin həyata keçirilməsi üçün təhsil humanistləşdirilməli, təlim inkişafetdirici və tərbiyəedici olmalıdır. Bu göstərilənlərin hər birinin həyata keçirilməsində yenə də başlıca yeri pedaqoji ünsiyyət, müəllim-şagird münasibətləri tutur.

Yuxarıda deyilənlərdən də göründüyü kimi, müəllim-şagird münasibətləri, şagird şəxsiyyətinin formalaşdırılması, yeni pedaqoji təfəkkür problemi pedaqoq və psixoloqlar tərəfindən kifayət qədər araşdırılsa da, bu sahədə bir-birilə ziddiyyət təşkil edən fikirlər də mövcuddur. Bununla yanaşı, cəmiyyət həyatının, insanların davranış və təfəkkür tərzinin dəyişməsi problemə müasir dövrün tələbləri baxımından yanaşılmasını zəruri edir.

Deyilənləri nəzərə alaraq, "Müasir təlim texnologiyalarından istifadənin müəllim-şagird münasibətlərinə təsirinin psixoloji xüsusiyyətləri" mövzusunun tədqiq edilməsini məqsədəuyğun hesab etmişik.

Problemin elmi, nəzəri, tarixi aspektdə öyrənilməsi göstərdi ki, pedaqoji ünsiyyət, pedaqoji təfəkkür, müəllim-şagird münasibətləri istər qərb, istər rus, istərsə də Azərbaycan alimləri tərəfindən kifayət qədər araşdırılmışdır. Lakin cəmiyyət həyatının, eləcə də təhsil sisteminin müasir tələbləri, təhsilin dinamikliyi, eləcə

də milli xüsusiyyətlərin nəzərə alınması baxımından problemin öyrənilməsi aktuallıq kəsb edir.

Problem ümumnəzəri aspektdə L.S.Vıqotski, S.L.Rubinşteyn, A.N.Leontyev, L.İ.Bojovic, B.F.Lomov, A.Bandura, E.Erikson, M.Mid, V.Stern, K.Rocers, E.Fromm və b., yaş və pedaqoji psixologiya aspektində J.Piaje, F.Olport, B.F.Skinner, A.Bandura, K.Xorni, A.Maslou, D.Bruner, İ.S.Kon, D.İ.Feldşteyn, D.B.Elkonin, V.V.Davıdov, Y.L.Kolominski, A.V.Petrovski, V.N.Myasişev, V.A.Suxomlinski və b. tərəfindən araşdırılmışdır.

Azərbaycan psixoloq və pedaqoqları da bu sahədə önəmli tədqiqatlar aparmışlar. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, B.H.Əliyev, M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov, K.R.Əliyeva, R.İ.Əliyev, İ.İ.Əliyev, A.N.Abbasov, H.Ə.Əlizadə, N.M.Mustafayev, Ə.Ə.Ağayev, A.O.Mehrabov, N.M.Kazımov, Ü.A.Əfəndiyeva, R.H.Qədirova, S.N.Əliyeva, S.H.Əlizadə, M.M.Vəliyeva problemi şəxsiyyət, yaş və pedaqoji, sosial psixologiya baxımından öyrənmişlər. Bu tədqiqatlarda fəaliyyət, ünsiyyət, qarşılıqlı münasibətlər, pedaqoji proses və s. ciddi şəkildə tədqiq edilmişdir. Lakin çoxcəhətli və mürəkkəb bir problemin bütün tərəflərinin əhatə olunduğunu söyləmək çətindir. Bu da mövzunun xüsusi aktuallıq kəsb etdiyini bir daha göstərir.

**Tədqiqatın obyekti.** Müəllim şagird münasibətlərinin psixologiyasıdır.

**Tədqiqatın predmeti.** Müasir təlim texnologiyalarından istifadənin müəllim-şagird münasibətlərinə təsirinin psixologiyasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Aparılmış tədqiqatın başlıca məqsədi psixoloji-pedaqoji ədəbiyyatın təhlili əsasında xüsusi metodikalar vasitəsilə müəllim-şagird münasibətlərini araşdırmaq, yeni təlim texnologiyalarından istifadənin müəllim-şagird münasibətlərinə təsirini müəyyənləşdirməkdən ibarətdir.

Qarşıya qoyulmuş məqsədi reallaşdırmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəuyğun hesab olunmuşdur:

- müəllim-şagird, eləcə də qarşılıqlı münasibətlər sistemini tədqiq etmiş qərb, rus və Azərbaycan psixoloqlarının əsərlərinin sistemli təhlilini vermək, onların bu sahədə rolunu və yerini müəyyənləşdirmək;

- ayrı-ayrı yaş dövrlərində qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətlərini araşdırmaq;

- müəllim-şagird münasibətlərinin şagird şəxsiyyətinin formalaşmasına təsirini öyrənmək;

- yeni təlim texnologiyalarından istifadənin qarşılıqlı münasibətlərə, o cümlədən müəllim-şagird münasibətlərinə təsirini öyrənmək;

- müəllim-şagird münasibətlərində cins-yaş xüsusiyyətlərinin rolunu üzə çıxarmaq;

- müəllim-şagird münasibətlərinin şagirdlərin intellektual inkişafına təsirini müəyyənləşdirmək.

**Tədqiqatın metodları.** Müasir psixologiya elmində, xüsusən də pedaqoji psixologiyada müəllim-şagird münasibətlərinin mexanizmləri və xüsusiyyətləri ilə bağlı elmi müddəalar və prinsiplər, əsas psixoloji təlimlər, şəxsiyyət və fəaliyyətin vəhdəti nəzəriyyəsi təşkil edir.

Tədqiqat prosesində aşağıdakı metodlardan istifadə olunmuşdur: elmi ədəbiyyatın nəzəri təhlili, müşahidə, müsahibə, söhbət, anket sorğusu, eksperiment.

Tədqiqata A.S.Makarenko adına Humanitar fənlər təmayüllü respublika gimnaziyası, "Zəngi" liseyi, Humanitar fənlər təmayüllü məktəb-lisey və Bakı Slavyan Universitetinin nəzdində Məktəb-Lisey Kompleksinin 250 nəfər şagirdi və 95 nəfər müəllimi cəlb olunmuşdur.

**Tədqiqatın əsas fərziyyəsi.** Əgər müəllim-şagird münasibətləri səmərəli şəkildə qurularsa, bu prosesdə fərdi, cins-yaş xüsusiyyətləri nəzərə alınarsa, bu münasibətlər şagirdlərin motivasiyasına və intellektual inkişafına təsir edər, şəxsiyyətin formalaşmasında müsbət rol oynaya bilər.

**Köməkçi fərziyyə** kimi əsas fərziyyəyə uyğun olaraq aşağıdakılar götürülmüşdür:

- Yeni təlim texnologiyalarından düzgün istifadə edilərsə, kollektivdə müsbət psixoloji iqlim formalaşar;

- Təlim-tərbiyə prosesində sosial-psixoloji treninqlərin tətbiqi qarşılıqlı münasibətləri inkişaf etdirər, təlimin keyfiyyətini yüksəldə bilər.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Müəllim-şagird münasibətlərinin düzgün qurulması şagird şəxsiyyətinin inkişafına əsaslı şəkildə təsir göstərir;

2. Müəllim-şagird münasibətləri səmərəli formada təşkil edilmədikdə uşaq və yeniyetmələrdə deviant davranışa və ya tənhalığa meyil güclənir;

3. Ayrı-ayrı yaş dövrlərində, eləcə də cinsi fərqlər baxımından müəllim-şagird münasibətləri fərqli şəkildə qurulur;

4. Motivasiya və intellektual inkişaf baxımından müəllim-şagird münasibətləri xüsusi əhəmiyyət kəsb edir;

5. Təlim-tərbiyə prosesində yeni təlim texnologiyalarından, o cümlədən sosial-psixoloji treninqlərdən istifadə bir tərəfdən təlimin keyfiyyətinin yüksəlməsinə, digər tərəfdən kollektivdə müsbət psixoloji iqlimin formalaşmasına şərait yaradır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində ilk dəfə olaraq müəllim-şagird münasibətləri yeni təlim texnologiyalarından istifadə prosesində təhlil olunur. Qarşılıqlı münasibətlərin qurulmasında cins-yaş, fərdi xüsusiyyətlər nəzərə alınmaqla onların şagird şəxsiyyətinə təsiri araşdırılır. Eyni zamanda ayrı-ayrı yaş dövrlərində qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətləri öyrənilir.

Ümumiyyətlə, ilk dəfə olaraq təlim-tərbiyə prosesində sosial-psixoloji treninqlərin rolu müəyyənləşdirilir. Tədqiqatda müəllim-şagird münasibətlərinin motivasiya və intellektual inkişafa təsiri, tənhalıq probleminin qarşılıqlı münasibətlərdə yeri məsələlərinin psixoloji xüsusiyyətləri təhlil olunur.

**Tədqiqatın elmi-nəzəri əhəmiyyəti** müəllim-şagird münasibətlərinin müasir dövrdə psixoloji xüsusiyyətlərini, yeni təlim texnologiyalarının qarşılıqlı münasibətlərə təsirinin mühüm cəhətlərini öyrənməkdən ibarətdir. Tədqiqatda əldə edilən müddəalar ümumi, pedaqoji psixologiyada şəxsiyyət, qarşılıqlı münasibətlər, təlim-tərbiyə işinin səmərəliliyinin artırılması, motivasiya və intellektual inkişafın psixoloji xüsusiyyətlərinin öyrənilməsində istifadə oluna bilər.

Tədqiqatın nəticələri ümumi və pedaqoji psixologiyanın yeni biliklərlə zənginləşməsinə, təlim-tərbiyənin səmərəli təşkili ilə bağlı olan istiqamətlərin optimallaşdırılmasına zəmin yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, yeni təlim texnologiyalarından istifadənin səmərəli yolları göstərilir, müəllim-şagird münasibətlərinin düzgün qurulmasının psixoloji xüsusiyyətləri müəyyənləşdirilir. Bununla yanaşı, tədqiqat işlərinin nəticələrindən müəllimlər üçün metodik vəsaitlərin hazırlanmasında, pedaqoji fəaliyyətlə bağlı aparılan tədqiqatlarda, ümumi və pedaqoji psixologiyanın tədrisində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları Azərbaycan Respublikası Təhsil İnstitutunun elmi seminarlarında müzakirə edilmiş, müəllifin yerli və beynəlxalq elmi mətbuatda dərc olunmuş məqalə və tezislərində öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikasının Təhsil İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş (10455 işarə), I fəsil (95339 işarə), II fəsil (66417 işarə), III fəsil (47363 işarə), nəticə (9675 işarə), istifadə edilmiş ədəbiyyat siyahısından (12181 işarə), ümumilikdə, dissertasiya işi 241430 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, obyekti və predmeti, məqsədi, elmi fərziyyəsi, vəzifələri və metodoloji əsası açıqlanır, həmçinin istifadə olunmuş tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, nəticələri barədə yığcam məlumat verilir.

Dissertasiyanın birinci fəsli "Problemin ümumnəzəri məsələləri, mahiyyəti və ədəbiyyatda qoyuluşu" adlanır. Bu fəsildə problemin ümumnəzəri məsələləri, mahiyyəti və ədəbiyyatda qoyuluşundan bəhs olunur. Bu fəsildə münasibət və qarşılıqlı münasibətlər probleminin pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu, Şərq fəlsəfi fikrində və Azərbaycan psixoloqlarının yaradıcılığında müəllim-şagird münasibətləri problemi, ayrı-ayrı yaş dövrlərində qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətləri məsələləri araşdırılmışdır. Bu fəslə 4 yarımfəsil daxildir. Fəslin birinci yarımfəsli "Münasibət və qarşılıqlı münasibətlər probleminin pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu" adlanır. Bu yarımfəsildə kollektivin, qrupun fəaliyyət sahələrində meydana çıxan sistemli mənəvi-psixoloji iqlimi araşdırılır. Pedaqoji kollektivin vəzifələri təlim fəaliyyəti ilə məhdudlaşmır. Burada, eyni zamanda şəxsiyyətin formalaşması mühüm yer tutur. Şagird şəxsiyyətinin formalaşdırılması bir çox amillərdən, o cümlədən şəxsiyyətlərarası münasibətlərdən asılıdır. Bu problemlər L.Y.Kolominski, İ.S.Kon, L.İ.Bojoviç, D.İ.Feldşteyn və b. tədqiqatlarında müxtəlif aspektlərdə araşdırılmışdır. Bunların əsasında isə şüur və fəaliyyətin vəhdəti durur.

Pedaqoq və psixoloqlar (S.L.Rubinşteyn, L.S.Vıqotski, A.V.Petrovski və b.) psixoloji iqlimin kollektivin fəaliyyət və inkişaf səviyyəsi ilə əlaqəli olduğunu qeyd edirlər. Göstərirlər ki, kollektivin, qrupun inkişaf səviyyəsindən asılı olaraq mənəvi-psixoloji iqlim formalaşır. Belə olduqda, qarşılıqlı münasibətlər birtərəfli qaydada qurulmur. Qrupun inkişafı isə eyni zamanda mənəvi-psixoloji iqlimlə bağlıdır.

Psixoloqlar (B.C.Aqeev, N.V.Qrişina, İ.S.Kon, L.İ.Umanski və b.) göstərirlər ki, psixoloji mühit bir tərəfdən qarşılıqlı

münasibətlərdən, digər tərəfdən də qrupun inkişaf səviyyəsindən asılıdır. Bu isə üzvlərin mənəvi-psixoloji zənginliyini yüksəldir. Burada isə ünsiyyətin rolu danılmazdır. Bunlar olmadıqda qrupda münaqişə vəziyyəti yaranır, münaqişə tərəfləri çoxalır.

Təcrübə göstərir ki, müəllimin özünüqiymətləndirməsi ilə şagirdlərin onu qiymətləndirməsi arasında ciddi fərq meydana çıxdıqda münasibətlərdə də konflikt yaranır. Bu isə kollektivdəki mənəvi-psixoloji iqlimə mənfi təsir göstərir.

Müəllim-şagird münasibətlərinin düzgün istiqamətdə, səmərəli qurulmasında yeni təlim texnologiyalarından, treninqlərdən istifadə olunması müsbət rol oynayır. Treninqlərdən eyni zamanda müəllimin peşə hazırlığı, peşəkarlıq səviyyəsinin yüksəldilməsində də istifadə etmək olar. Bu münasibətlərdəki konfliktlərin həll olunması baxımından da əlverişlidir.

Şagird şəxsiyyətinin formalaşması, onların təlim müvəffəqiyyəti, intellektual inkişafı, motivasiya-tələbat sferası ilə müəllim-şagird münasibətləri arasında birbaşa asılılıq vardır. Bununla yanaşı, müəllim və şagirdlərin real “məni” bütövlükdə pedaqoji kollektivin həyatına, mənəvi-psixoloji mühitinə təsir edir.

I fəslin ikinci yarımfəsli “Şərq fəlsəfi fikrində və Azərbaycan psixoloqlarının yaradıcılığında müəllim-şagird münasibətləri problemi” adlanır. Bu yarımfəsildə Şərq fəlsəfi fikrində müəllim-şagird münasibətləri, bir tərəfdən şəxsiyyətin formalaşdırılması, digər tərəfdən elm, bilik öyrənmək kontekstində təqdim edilir. “Qabusnamə”də göstərilir ki, insan gücü, qabiliyyəti və imkanı daxilində hər şeyi öyrənməlidir. Sədinin “Gülüstan” əsərinin əsas istiqamətlərindən biri də uşağa elmi, sənəti öyrətməkdən ibarətdir. O, elmə, biliyə, insani münasibətlərə ictimai məsələ kimi yanaşır, insanın xalqına xeyir verməli olduğunu bildirir. Qeyd edir ki, faydalı işə sərf olunmayan elm, bilik öyrənilməsə, yaxşıdır. Nəsrəddin Tusinin əsərlərində də qarşılıqlı münasibətlərə, müəllim-şagird münasibətlərinə xüsusi yer verilir. O, şəxsiyyətin formalaşdırılmasına, tərbiyə məsələlərinə körpə vaxtlarından başlanılmasını tövsiyə edir.

Azərbaycan pedaqoq və psixoloqlarının tədqiqatlarında da müəllim-şagird münasibətlərinin araşdırılması mühüm yer tutur. Bu

baxımdan Ə.Y.Seyidov, Ə.Ə.Ağayev, Z.İ.Qaralov, M.M.Mehdizadə, N.M.Kazımov, F.Ə.İbrahimbəyov, A.O.Makovelski, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov və b. adlarını qeyd etmək olar. Onların əsərlərində problem ümumnəzəri, sosial-psixoloji, təlim-tərbiyə, yaş xüsusiyyətləri aspektində araşdırılmışdır.

Psixoloji tədqiqatlar göstərir ki, insan bütün zamanlarda, şübhəsiz ki, məktəbdə, sinifdə özünə qarşı diqqət və qayğı ehtiyacını duyur. Müəllim-şagird münasibətləri, adətən, şagird-şagird münasibətlərinə də təsir edir. Bu, özünü daha aydın şəkildə ibtidai siniflərdə göstərir. Məlumdur ki, ibtidai sinif şagirdləri daha çox müəllimi təqlid edirlər. Onlar müəllimin pislədiyi uşaqdan uzaq dururlar. Bu şagirdlər psixoloji baxımdan təcrid vəziyyətinə düşürlər.Nəticədə, özünü məktəbdə, kollektivdə təsdiq edə bilməyən şagirdlər özlərini küçə qruplarında təsdiq etməyə çalışırlar. Hətta çox vaxt qrup halında cinayət törədirlər. Ə.Ə.Əlizadəyə görə, bu cinayətin səbəblərindən birini də müəllim-şagird münasibətlərində axtarmaq lazımdır.

Müşahidələr göstərir ki, müəllim-şagird münasibətlərində qeyri-standart düşüncəyə malik olan şagirdlər çətinliklərlə üzləşirlər. Psixoloji ədəbiyyatda verilən bir situasiyanın təsviri hesab edirik ki, fikrimizin doğruluğunun təsdiqi kimi başa düşülə bilər. Müəllimlərə sual verməyi xoşlayan, ağlına batmayan şeylərə etiraz edən şagird müəllimlər tərəfindən daim tənqid və tənbeh edilir. Şagirdin müstəqil və tənqidi təfəkkürünü başa düşməyən, onu rəğbətləndirmək əvəzinə tənbeh edən müəllimlərin davranışı hətta məktəb rəhbərliyi tərəfindən də razılıqla qarşılanır. Halbuki, onlar bunun psixoloji səbəblərini araşdırıb, təhlil etməli idilər. Yəni müəllim-şagird münasibətləri qaçılmazdır. Burada müəllimin şagirdlərə, eləcə də şagirdlərin müəllimlərə münasibətini nəzərə almadan onların psixoloji xüsusiyyətlərini açmaq qeyri-mümkündür.

Müasir dövrdə təhsilin humanistləşdirilməsi müəllim-şagird münasibətlərinə yeni çalarlar verir. Burada əsas olaraq şagirdin ləyaqətinə hörmət etmək, ona etibar etmək, inanmaq, bir şəxsiyyət

kimi onun məqsədinə, tələbatlarına, motivasiyasına hörmətlə yanaşmaq lazım gəlir.

B.H.Əliyev, K.R.Əliyeva və R.V.Cabbarov müasir dövrdə təhsilin humanistləşdirilməsi və yeni pedaqoji təfəkkürün formalaşdırılmasını əsas prinsip kimi göstərirlər. Onların fikrincə, ilk növbədə, müəllim-şagird və şagird-şagird münasibətləri humanistləşdirilməlidir. Çünki müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi şagirdin bir şəxsiyyət kimi inkişaf etdirilməsinin başlıca şərtidir.

Fəslin üçüncü yarımfəsli “Ayrı-ayrı yaş dövrlərində qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətləri” adlanır. Bu yarımfəsildə aşağıdakı məsələlər diqqət mərkəzinə gətirilir.

Psixoloji ədəbiyyatda münasibətin müxtəlif növləri göstərilir. Əsasında isə xarici və daxili faktorlar dayanır. Münasibətin bu iki cəhəti dərin köklərlə insanın filogenetik və tarixi keçmişi ilə bağlıdır. Bunların əsasında isə insanın müsbət və ya mənfi seçki münasibəti yaranır və insanın psixi fəaliyyəti aktiv şəkildə istiqamətlənir.

Psixoloqlar (V.N.Myasişev, B.Q.Ananyev, A.V.Petrovski və b.) göstərirlər ki, hətta temperament tipləri münasibətlərə təsir göstərir. Laqeydlik və ya hədsiz istək, səbirlilik və ya səbirsizlik, eləcə də digər keyfiyyətlər temperament tipləri ilə bağlıdır və özünü insanın reaksiyasında, münasibətlər sistemində əks etdirir. Hətta bildirirlər ki, münasibət tədricən xarakter əlamətinə çevrilir. Bununla yanaşı, göstərirlər ki, bu formula zahiri xarakter daşıyır. Lakin o da məlumdur ki, münasibətlərin davamlılığı və ya keçiciliyi xarakterlə vəhdət təşkil edir. Bununla yanaşı, xarakterik bir sıra əlamətlərin, məsələn, qətiyyətlilik, məqsədyönlülük və sairənin münasibətlə bağlılığı yoxdur. Xarakter və temperament insanın hər hansı bir hadisəyə, obyektə münasibətinin səviyyəsinə təsir edir.

Təhlillərdən də göründüyü kimi, münasibət anlayışı çoxşaxəlidir və yalnız modal münasibətlərlə (pozitiv, neqativ, ambivalent, indiferent) məhdudlaşmır. Halbuki, demək olar ki, münasibətlə bağlı aparılan tədqiqatlarda, əsasən, bu cəhət araşdırılır.

Biz öz tədqiqatımızda problemlə bağlı aşağıdakı vəzifələri həll etməyə çalışdıq:

1. Müxtəlif fəaliyyət növləri, yaş xüsusiyyətləri və münasibət arasındakı qarşılıqlı asılılığı öyrənmək;

2. Kiçik məktəb yaşı dövründə şagirdlərin müxtəlif fəaliyyət növlərinə müsbət münasibətini şərtləndirən amilləri üzə çıxarmaq;

3. Kiçik yaşlı məktəblilərlə yeniyetmələr arasındakı fərqi müəyyənləşdirmək.

Fəslin dördüncü yarımfəsli "Müasir təlim texnologiyalarının ümumi xarakteristikası" adlanır. Bu yarımfəsildə təhsilin, təlim-tərbiyənin, eləcə də qarşılıqlı münasibətlərin daha keyfiyyətli təşkili üçün dövrün tələblərindən irəli gələn müasir təlim texnologiyalarından istifadənin vacib şərtlərdən biri olduğu qeyd olunur, öyrədənin və öyrənənin fəaliyyəti iki aspektdə: passiv və aktiv, interaktiv kimi səciyyələndirilir.

Təcrübə göstərir ki, müsir dövrdə təhsil sistemində tətbiq edilən cütlərlə, qrupla iş forması, eləcə də əqli hücum, klaster, BİBÖ kimi metodlar şagirdlərin müstəqil düşünmək, yoldaşları ilə qarşılıqlı münasibətdə olmaq qabiliyyətini inkişaf etdirir. Bu zaman müəllim prosesə müdaxilə etməməli, sadəcə onu istiqamətləndirməli, tərəfdaşa çevrilməlidir. Belə fəaliyyət forması yalnız şagirdləri deyil, müəllimi də aktivləşdirir.

Müasir təlim texnologiyaları sırasında layihələndirmə tədqiqatçılıq işi xüsusi yer tutur. Burada şagirdlərin düşünmə, axtarış keyfiyyətləri üzə çıxır, idrak fəallığı yüksəlir. Adətən, onun üç mərhələsi qeyd edilir: müəllim istiqamət verir, problem qoyur, şagirdlər onun həlli yollarını axtarırlar; şagirdlər problemi özləri qoyur və həll edirlər.

Layihə metodu şagirdlərin biliklərini ümumiləşdirməyə, onu yeni ideyalarla zənginləşdirməyə xidmət edir. Burada müəllim informasiya verən, istiqamətləndirən rolunu yerinə yetirir. Şagirdlər isə problemin həlli üzərində işləyir, mümkün nəticə alırlar. Bu metod, eyni zamanda şagirdlərdə əməkdaşlıq, əlbir işləmək kimi xüsusiyyətləri inkişaf etdirir. İstər müəllim – şagird, istərsə də şagird - şagird münasibətləri pozitiv məcrada həyata keçirilir.

Aktiv təlim metodları içərisində işgüzar oyunlar diqqəti cəlb edir. Bu metod fəaliyyətin səmərəliliyini yüksəldir, konflikt vəziyyətin aradan qaldırılmasına köməklik edir.

İlk işgüzar oyunlar hərbi təlimlərdə istifadə edilib. İşgüzar oyunların tətbiq olunduğu ilk ölkələr sırasında ABŞ-ı göstərmək olar. ABŞ-da işgüzar oyunlar rəqabətəqabilliyi artırmaq, rəqiblərə qalib gəlmək keyfiyyətlərini mənimsəmək məqsədilə keçirilmişdir.

Beləliklə, istər təlimin səmərəliliyini artırmaq, istərsə də şəxsiyyətlərarası qarşılıqlı münasibəti tənzimləmək baxımından müasir təlim texnologiyalarından istifadə olunması pedaqoji prosesi daha effektiv edir. Lakin bu zaman ənənəvi təlim metodlarından imtina etmək düzgün olmazdı. Onların vəhdətdə olması, yerində istifadə edilməsi ən düzgün yoldur.

Dissertasiyanın ikinci fəsli "Şagird şəxsiyyətinin formalaşmasında qarşılıqlı münasibətlərin rolu" adlanır. Bu fəsil 3 yarımfəsildən ibarətdir. Fəslin birinci yarımfəsli *"Müəllim-şagird münasibətlərinin şagird şəxsiyyətinin formalaşmasına təsiri"* adlanır. Bu yarımfəsildə qarşılıqlı münasibətlərin rolundan bəhs olunur.

Bütövlükdə, məktəbdə qarşılıqlı münasibətləri iki mühüm qrupa ayırmaq olar: şagird-şagird münasibətləri və müəllim-şagird münasibətləri. Şagird-şagird münasibətləri daha çox şəxsiyyətin formalaşdırılması, müəllim-şagird münasibətləri isə tərbiyə prosesi aspektində araşdırılır.

Müxtəlif məktəb kollektivlərində – sinifdə, məktəbdə, dərnəklərdə, ictimai işlərdə və s. şagirdlər qarşılıqlı münasibətlər sisteminə daxil olurlar.

Psixoloqlar A.N.Petrovski, F.D.Feldşteyn, Ə.S.Bayramov, M.Ə.Həmzəyev və b. göstərirlər ki, kollektivin qarşısına ictimai əhəmiyyətli vəzifələr qoyulduqda və bu, şagirdin fərdi maraqlarına uyğun gəldikdə daha effektiv olur.

Şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması onların kollektivdə müsbət psixoloji mühitə düşməsinə şərait yaradır. Əlbəttə, burada şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır.

Təbii ki, şagird şəxsiyyətinin formalaşması, təlim müvəffəqiyyəti, ilk növbədə, müəllim-şagird münasibətlərindən asılıdır. Müəllim-şagird münasibətləri zamanı yalnız tərəflərdən biri digərinə təsir etmir. Burada qarşılıqlı təsir özünü göstərir.

Psixoloji tədqiqatlar, eləcə də aparılan müşahidələr göstərir ki, müəllim-şagird münasibətlərindən asılı olaraq, onun tədris etdiyi fənnə də maraq adekvat olur. Bunların doğruluğunun yoxlanılması üçün Bakı şəhərindəki Humanitar fənlər təmayüllü liseyin VI-VIII sinif şagirdləri ilə sorğu keçirdik. Şagirdlərin cavablarına əsasən münasibətləri üç qrupa ayırdıq. Bunları "sevimli müəllim", "sevilməyən müəllim" və "neytral" qruplarda birləşdirdik. Sonra şagirdlər sevdikləri, biganə qaldıqları və sevmədikləri fənləri göstərdilər. Alınan cavabları aşağıdakı cədvəldə veririk:

**Cədvəl 1.**

**Müəllimə münasibət və fənnə maraq arasındakı asılılıq (%-lə).**

| Siniflər | Şagirdlərin münasibəti və sayı | Müəllimə münasibət | Fənnə münasibət | | |
|---|---|---|---|---|---|
| | | | sevimli | neytral | xoşlamadığı |
| VI | 56<br>47<br>39 | Sevimli<br>Neytral<br>Sevimli olmayan | 77,0<br>33,0<br>16,0 | 13,5<br>50,0<br>17,0 | 9,5<br>17,0<br>67,0 |
| VIII | 49<br>36<br>23 | Sevimli<br>Neytral<br>Sevimli olmayan | 72,0<br>32,0<br>21,0 | 15,5<br>56,5<br>21,0 | 12,5<br>11,5<br>58,0 |

Cədvəldən göründüyü kimi, siniflər üzrə müəllimə münasibətlə fənnə münasibət arasında müəyyən fərqlər özünü göstərir.

Təlim fəaliyyəti ilə müəllim-şagird münasibətlərinin əlaqəsi, eyni zamanda müəllimin davranış və xarakterindən asılıdır. Biz, bu münasibətləri və onların qarşılıqlı asılılığını aşağıdakı cədvəllə veririk.

**Cədvəl 2.**

**Müəllim-şagird münasibətlərinə təsir edən xüsusiyyətlər (%-lə).**

| Siniflər | Şagirdlərin müəllimlərdə üstünlük verdikləri keyfiyyətlər | | | |
|---|---|---|---|---|
| | peşəkarlıq keyfiyyətləri | xarakter əlamətləri və davranışı | insani keyfiyyətləri | tərbiyəedici qabiliyyəti |
| V | 22,5 | 43,5 | 27,0 | 7,0 |
| VI | 31,0 | 39,0 | 25,0 | 5,0 |
| VII | 49,0 | 41,0 | 8,0 | 2,0 |
| VIII | 45,0 | 41,0 | 11,0 | 3,0 |
| IX | 56,0 | 36,0 | 5,5 | 2,5 |

Cədvəldən də göründüyü kimi, müəllimin peşəkarlığı, xarakteri, davranışı, tərbiyəedici qabiliyyəti, insani keyfiyyətləri şagirdlər tərəfindən fərqli şəkildə qiymətləndirilir.

Müəllim şagirdi tez-tez tənqid etdikdə və ya az-az hallarda təriflədikdə, adətən, davranış motivasiyasının səviyyəsi aşağı düşür. Biz bunu aşağıdakı cədvəldə veririk.

**Cədvəl 3.**

**Müəllimin münasibəti və şagirdin davranış motivasiyasına onun təsiri (%-lə).**

| Müəllimin qiymətləndirməsi | Davranış motivasiyası | | |
|---|---|---|---|
| | yüksək | orta | aşağı |
| Həvəsləndirmə: | | | |
| vaxtaşırı | 81,6 | 10,5 | 7,9 |
| hərdənbir | 34,3 | 50,2 | 15,5 |
| Tənbeh və tənqidetmə: | | | |
| tez-tez | 11,5 | 39,5 | 49,0 |
| vaxtaşırı | 40,5 | 33,5 | 26,0 |
| hərdənbir | 55,0 | 40,5 | 4,5 |

Şagirdlərdə inam hissinin formalaşdırılması da müəllim-şagird münasibətlərindən çox asılıdır. Burada təlim fəaliyyəti, müəllimin tədris etdiyi fənnə maraq oyada bilməsi, təlimi mənəvi tərbiyə ilə əlaqələndirə bilməsi mühüm şərtdir. Belə olduqda şagirdlər öz

müəllimlərinə müsbət nümunə kimi baxır, hətta ona bənzəməyə çalışırlar.

Uşağın özünün nümunəni qəbul etməsi onu fəallaşdırır və psixi inkişafa pozitiv təsir göstərir. Biz, müəllimin inam və etiqadının, şəxsi nümunəsinin şagirdlərə necə təsir etdiyini öyrənmək məqsədilə 143 nəfər VII sinif şagirdi ilə sorğu keçirdik. Alınan nəticələri aşağıdakı cədvəldə veririk.

**Cədvəl 4.**

**Şagirdlərin müəllimlərində bəyəndikləri xüsusiyyətlər (%-lə).**

| № | Müəllimlərin davranışı ilə bağlı şagirdlərin verdiyi xarakteristika | Cavablar %-lə |
|---|---|---|
| 1. | Düzlük | 64,0 |
| 2. | Şagirdlərə kömək etməsi | 48,0 |
| 3. | Dərsi maraqlı keçməsi | 45,0 |
| 4. | Şagirdlərlə yaxşı münasibət qura bilməsi | 43,0 |
| 5. | Şən olması | 40,0 |
| 6. | Ölçülü səviyyədə tələbkarlığı | 38,0 |
| 7. | Səmimiliyi | 37,0 |
| 8. | Şagirdlərin fikri ilə maraqlanması | 34,0 |

Yuxarıda deyilənləri belə ümumiləşdirmək olar:

1. Müəllimin fəaliyyət və davranışı sosial norma və tələblərlə vəhdət təşkil etməlidir.

2. Müəllim-şagird münasibətləri şagirdlərdə müsbət keyfiyyətlər formalaşdırmağa xidmət etməlidir.

3. Müəllim o zaman uğur qazana bilər ki, öz davranış və fəaliyyəti ilə şagirdlərin davranış və fəaliyyəti arasında vəhdət yarada bilsin.

Deyilənlərdən də göründüyü kimi, pedaqoji kollektivin formalaşması təhsilin müasir dövrdə qarşısında duran mühüm vəzifələrdəndir. Burada isə başlıca yeri müəllimin pedaqoji ünsiyyəti və qarşılıqlı münasibətləri tutur.

II fəslin *"Müəllim-şagird münasibətlərində cins-yaş xüsusiyyətlərinin rolu"* adlı ikinci yarımfəsli cinsi fərqlər, cinsi tərbiyə məsələlərini özündə ehtiva edir.

Cinsi tərbiyə, eyni zamanda uşaq və yeniyetmələrin sosiallaşmasında mühüm aspektlərdən biri olmaqla şüur, fəaliyyət və ünsiyyətin vəhdətini təmin edir. Bunlar isə sosial münasibətlərin bütün sisteminin mənimsənilməsini əhatə edir.

Bununla yanaşı, müəllimin cinsi fərqlərin psixologiyasını, yəni hər bir cinsə aid xüsusiyyətləri bilməsi onlarla qarşılıqlı münasibətlərin düzgün qurulmasına şərait yaradır. Bu zaman müəllim bilir ki, cinsi xüsusiyyətlər uşaq, yeniyetmələrin şüur və davranışına necə təsir edir.

Cinsi fərqlər və cinsi tərbiyə ilə bağlı aparılan tədqiqatlarda bir sıra psixoloqlar (D.N.İsayev, V.E.Kaqan, İ.S.Kon və b.) mədəni-sosial faktorları əsas götürməklə sosial norma, dəyərlərin oğlan və qızların davranış və təfəkkürünə təsir etdiyini, eləcə də bunların əsasında cəmiyyət üzvlərinin onlardan qeyd olunanları tələb etdiyini göstərirlər.

M.Mid isə hesab edir ki, kişi və qadın psixologiyasının formalaşmasında cəmiyyətin fəaliyyət sahəsi mühüm rol oynayır. İ.S.Kon, A.Q.Xripkova və başqalarının tədqiqatlarında maskulinlik və frustrasiyaya aid edilən keyfiyyətlər göstərilir. Burada kişi rolu "instrumental", qadın isə "ekspressiv" həyat tərzinə aid edilir.

Müəllim-şagird münasibətlərinə çoxsaylı amillər təsir edir. Lakin bunların içərisində cins və yaş xüsusiyyətləri xüsusi rol oynayır. Problemə yaş kontekstindən yanaşan psixoloqlar münasibət və ünsiyyət, davranış motivlərini bununla əsaslandırırlar. Psixoloji ədəbiyyatda "V sinif problemi" adlanan termin vardır. Bununla bağlı A.M.Prixojan, N.N.Tolstıx, A.P.Krakovski və b. xüsusi tədqiqatlar aparmışlar.

Digər bir cəhət onunla bağlıdır ki, ictimai həyatda baş verən dəyişikliklər səbəbindən gənc nəslin sosiallaşması, individuallaşması prosesi xeyli çətinləşib.

Tədqiqat zamanı məlum oldu ki, məktəbdə qarşılıqlı münasibətlər (istər müəllim-şagird, istərsə də şagird-şagird münasibətləri olsun), ilk növbədə, idarəetmədən və psixoloji mühitdən asılıdır. Bunlar isə son nəticədə pedaqoji prosesin səmərəliliyinə və kollektivin yaradıcı fəaliyyətinə öz təsirini göstərir.

Fəslin üçüncü yarımfəsli *"Yeniyetməlik yaş dövründə tənhalıq problemi və qarşılıqlı münasibətlər sistemində onun yeri"* adlanır. Yarımfəsildə tənhalıq probleminin yaranması səbəbləri araşdırılır.

Biz tədqiqatımızda tənhalığı emosional vəziyyət, sosial əlaqə və ünsiyyətdən narazılıq aspektində araşdırmışıq.

İctimai şüurda tənhalıq, adətən, yaşlı və qocalar üçün xarakterik olan bir vəziyyət kimi qəbul edilir. Lakin bir sıra tədqiqatlar sübut edir ki, bu problem gənclik və yeniyetməlik yaş dövrləri üçün də xarakterikdir. Başqa sözlə, problem yeniyetməlik yaşında təzahür etməyə başlayır. Bu, ilk növbədə, onunla əlaqədardır ki, bu yaş dövründə özünüdərkin yeni mərhələsi başlayır, özünütəsdiqə cəhd edilir, özünüqiymətləndirmə dəyişir. Yeniyetmələr artıq özlərini yaşlı hesab edir, onlar özlərinə qarşı hörmət gözləyirlər. Hesab edirlər ki, ətrafdakılar onların fikirləri ilə hesablaşmalıdırlar. Bunlarla yanaşı, anatomik-fizioloji dəyişkənlik, cinsi yetişkənliyin ikinci mərhələsinin başlanması, oğlanlarda kişilərə, qızlarda qadınlara aid keyfiyyət və əlamətlərin yaranması da öz təsirini göstərir. Bunlar isə yeniyetmələrin hər şeyə tənqidi yanaşmasına səbəb olur.

Bunlar isə münasibətlər sistemində əsaslı dəyişiklik yaradır. İlk məhəbbət yaranır. Lakin onlar öz məhəbbətlərini gizlətməyə çalışırlar. Oğlanlar bir çox hallarda hətta sevdikləri qıza belə sevgilərini etiraf edə bilmirlər. Bu isə onlarda bir çox hallarda özünəqapanmaya və yaxud əsəbiliyə səbəb olur. Əgər yeniyetmə sinif yoldaşları, ətrafında olduğu həmyaşıdları tərəfindən qəbul olunmursa, emosional bağlılıq yaranmırsa, tənhalıq meyli güclənir.

Məlum olduğu kimi, digər psixoloji səbəb yeniyetmənin tənha olmaq tələbatı ilə bağlıdır. Məhz belə olduqda yeniyetmə özü-özü ilə üzbəüz qalır, baş verən dəyişikliklərin səbəbini öyrənməyə, dərk etməyə çalışır. Özünü, başqalarını, ona və özünün başqalarına qarşı münasibətini, onun səbəblərini bilmək istəyir. Bunlarla yanaşı, özünün davranışını, mövqeyini müəyyənləşdirməyə cəhd edir. Bütün bunlar yeniyetməlik yaşı üçün xarakterik olan xüsusiyyətlərdir. Bunlarla yanaşı, bir sıra psixoloqlar (A.V.Mudrik, Ə.Ə.Əlizadə, Ə.Ə.Qədirov, C.R.Oldi və b.) yeniyetmənin tənhalığa meyil etməsinin qorxulu cəhətlərini qeyd edərək göstərirlər ki, bu

vəziyyət xroniki xəstəliyə də çevrilə bilər. Başqa sözlə, yeniyetmənin uzunmüddətli tənhalığa meyil etməsi hansısa psixoloji problemin olması barədə xəbərdarlıqdır. Bu, ola bilsin ki, qarşılıqlı münasibətlərdən, daxili aləmdə baş verən problemlərdən və ya tamamilə başqa səbəblərdən baş verə bilər.

Burada maraqlı bir sual meydana çıxır: Necə olur ki, yeniyetməlik yaşının başlanğıcında tənhalığa meyil etmək tədricən şüurlu şəkildə özünütəcridə və ünsiyyətdən çəkinməyə çevrilir? Məsələnin digər maraqlı cəhəti ondan ibarətdir ki, yeniyetmələr özləri tənhalıq barədə, onun səbəbləri və təzahürü barədə nə fikirləşirlər?

Ümumən, anket sorğusu və söhbətlərdən belə nəticəyə gəlmək olar ki, yeniyetmələr tənha qalmağı normal hal hesab edirlər. Yeniyetmələrlə keçirilən sorğunun nəticələrini aşağıdakı cədvəldə veririk:

**Yeniyetmələrin tənhalıqla bağlı verdikləri cavablar (%-lə)**

| Siniflər | Tənhalığın səbəbini sosial amillərdə görənlər | Şəxsi keyfiyyətin nəticəsi hesab edənlər | Ünsiyyəti səbəb göstərənlər | Davranışı səbəb göstərənlər | Xarakter çətinliyini göstərənlər | Cavab verməyə çətinlik çəkənlər |
|---|---|---|---|---|---|---|
| VIII | 29 | 17 | 11 | 12 | 12 | 2 |
| IX | 21 | 23 | 15 | 8 | 14 | 2 |
| Cəmi | 25 | 20 | 13 | 10 | 13 | 2 |

Göründüyü kimi, siniflər arasında tənhalığın səbəbləri barədə o qədər də kəskin fərq yoxdur.

Tənhalığın, eləcə də tənhalığa meyil etmənin səbəbləri sırasında sosial amillərin də təsirini diqqətdən kənarda qoymaq olmaz. Xarici təsirlərə radio, televiziya, xüsusilə sosial şəbəkələri də aid etmək olar.

Hesab edirik ki, onların hər birinin ayrılıqda araşdırılmasına ehtiyac vardır. Biz isə tənhalıq problemini öz tədqiqatımıza uyğun şəkildə qarşılıqlı münasibətlər kontekstində araşdırmışıq.

Dissertasiyanın III fəsli “Yeni təlim texnologiyalarindan istifadənin müəllim-şagird münasibətlərinə təsirinin eksperimental tədqiqi” adlanır. Bu fəslə aşağıdakı yarımfəsillər daxil edilmişdir:

1.Müəllim-şagird münasibətlərinin eksperimental tədqiqi

2. Təlim-tərbiyə prosesində sosial-psixoloji treninqlərdən istifadənin rolu

Fəslin birinci yarımfəslində dissertasiya müəllifi eksperimentlə yeni təlim texnologiyalarının tətbiqində ortaya çıxan məsələlərlə tanış olmağı məqsədəuyğun hesab edir. Məlumdur ki, nailiyyət qazanmağa ehtiyac motivasiyası, daha dəqiq desək, onun bir forması olan uğursuzluqdan qaçmaq motivasiyası və ya uğur qazanmağa cəhd 3-13 yaşlılar arasında formalaşır.

Psixoloji tədqiqatlar (L.S.Vıqotski, Y.L.Kolominski, Ə.S.Bayramov, M.Ə.Həmzəyev, Ə.Ə.Əlizadə və b.) göstərir ki, istənilən psixi xassə çoxölçülüdür. Bura, eyni zamanda xeyli sayda digər amillər də təsir göstərir. Müəllim və valideynləri, adətən, uşağın (şagirdin) təlim müvəffəqiyyəti maraqlandırır. Hətta uşağa münasibət də bu istiqamətdə təzahür edir. Lakin onlar sanki unudurlar ki, intellektin, təlim müvəffəqiyyətinin aşağı səviyyədə olması uşağın sosiallaşmasının zəif olmasından, motivasiyanın qeyri-qənaətbəxş səviyyəsindən, yüksək həyəcanlılıqdan və s. asılı ola bilər. Müəllim onların hər birini ayrılıqda və kompleks şəkildə öyrənməlidir.

Biz, təlim texnologiyaları ilə bağlı “Qutu metodundan” istifadə etdik. Onun keçirilməsi qaydası belədir. Şagirdlərə müxtəlif çətinlik dərəcəli tapşırıqların həll olunması təklif edilir. Onlara bildirilir ki, birinci qutuda sadə tapşırıqlar, ikincisində, nisbətən çətin tapşırıqlar vardır. Üçüncü, dördüncü qutularda isə tapşırıqlar getdikcə çətinləşir. Qutuların sayı dörddür. Tapşırığın şərti lövhəyə yazılır.

Dərsin başlanğıcında hər bir şagirdə 8 şərti pul verilir. Müəllim izah edir ki, əgər şagird dərs vaxtı çox pul qazanarsa, bu pula uyğun qiymət alır. Bu pulları isə qutudan tapşırıqları həll etməklə qazanmaq olar. Hər bir kartoçka hansı qutudan götürülməsinə baxmayaraq, bir pul vahididir. Lakin pulun miqdarı məsələnin həllindən, onun çətinlik səviyyəsindən asılıdır. Birinci qutudan olan

tapşırığın həlli üçün bir manat, ikinci qutudan olan tapşırığın həlli üçün iki manat, üçüncü qutudan olan tapşırıq üçün üç, dördüncü qutudan olan tapşırığın həlli üçün dörd manat verilir.

Müəllim şagirdlərə bildirir ki, əgər dərs müddətində onlardan kim 15 şərti manat toplasa “5”, 12 manat toplasa “4”, 10 manat toplasa “3” qiymət alır.

Müəllimlər qeyd edirlər ki, onların şagirdləri dəyişir. Əvvəllər tənbəl olanlar, sanki birdən-birə fəallaşırlar. Şagirdlərə xoş gəlir ki, onlar sərbəstdirlər, özləri seçim edir və müəllimdən asılı olmurlar.

Yeri gəlmişkən, seçim etmək, asılı olmaqdan qaçmaq problemi ilk dəfə Amerika psixoloqu K.Levin tərəfindən eksperimental yolla öyrənilmişdir. O, uşaqlara müəyyən tapşırıqlar verir. Məsələn, qabları yumaq, evi yığışdırmaqda böyüklərə kömək etmək və s.

Mükafat olaraq priz müəyyənləşdirilir. Buna görə də uşaqlar tapşırığı yerinə yetirməyə səy göstərirlər. Eksperiment zamanı yaşlı adam uşağa vaxtında xəbərdarlıq etmir. Daha doğrusu köməyə çağırmır. Məlum olur ki, qablar artıq yuyulub. Uşaqlar belə olduqda çox kədərlənirlər. Xüsusilə bu işi yoldaşlarından kimsə yerinə yetirmiş olduqda. Onlardan bəziləri hətta işi yerinə yetirmiş yaşıdına qarşı aqressivlik edirlər. Belə olduqda eksperimentator uşaqlara başqa iş təklif edir. Uşaqlardan çoxu razılaşır və yeni işə başlayırlar.

Yeni işə başlamaqla uşaqların narazılığı və aqressiyası da keçib gedir. Lakin uşaqlardan bəzisində yeni şəraitə uyğunlaşma və yeni tələbatın yaranması baş vermir. Bu vəziyyətdə onlarda həyəcan və aqressivlik nəinki azalır, əksinə, artır.

K.Levinin tədqiqatları sübut etdi ki, yalnız həmin andakı situasiya deyil, insanın beynində əvvəlcədən yaranmış hadisələr də onların fəaliyyətinə təsir edir.

Biz, eksperimenti müxtəlif yaşlı uşaqlarla keçirməyi qərara aldıq. Bu, alınan nəticələrin, eləcə də yaş xüsusiyyətlərinin öyrənilməsi baxımından əhəmiyyətlidir. İlk mərhələdə eksperiment kiçik məktəblilərlə keçirildi. Biz, şagirdlərə görəcəkləri iş üzərində fikirləşməyi öyrətməyi qarşıya məqsəd qoyduq. Yəni şagird uğursuzluğa düşə biləcəyindən xəbərdar olsun. Belə ki, birinci səviyyədə olan tapşırığı götürməyin heç bir əhəmiyyəti yoxdur.

Lakin I sinif şagirdlərinin böyük bir qismi məhz bu tapşırıqları götürürdülər. Əvvəlcə bizə elə gəldi ki, bu vəziyyət yalnız I sinif şagirdləri üçün xarakterikdir. Məlum oldu ki, biz səhv edirik.

Biz eksperimenti 2, 3, 5, 6 və 9-cu siniflərlə də keçirdik. Məlum oldu ki, yuxarı siniflərə doğru şagirdlərin daha çox faizi daha asan həll oluna bilən tapşırıqları seçirlər.

Biz, nümunəvi sayılan IX sinif şagirdləri ilə də eksperiment keçirdik. Yenə də oxşar nəticə alındı. Bizə elə gəlirdi ki, bu vəziyyət şagirdlərin intellekt səviyyəsinin aşağı olması ilə bağlıdır. Müəllimlərlə aparılan söhbət, keçirilən testlər bizim fikrimizin doğru olmadığını göstərdi. Görəsən, niyə kifayət qədər ağıllı uşaqlar belə sadə bir həqiqəti dərk edə bilmirlər ki, bu səviyyədən olan tapşırıqla uğur qazana bilməyəcəklər?!

Biz, həmin eksperimenti böyüklər arasında keçirməyi qərara aldıq. Eksperiment Bakı şəhərində fəaliyyət göstərən Humanitar fənlər təmayüllü məktəb-liseyin 22 nəfər ali təhsilli müəllimi arasında keçirildi. Qeyd etmək istərdik ki, müvəffəqiyyət qazanacağı təqdirdə müəllimlər qiymət deyil, priz qazanmalı idilər. Nəticə maraqlı idi. 22 nəfərdən 13 nəfəri birinci qutudakı yüngül tapşırıqları seçdilər. Onlardan 4 nəfəri növbəti mərhələdə də asan tapşırıqlardan başladılar.

Görünür, burada intellekt yox, fərdi-psixoloji xüsusiyyətlər başlıca rol oynayırdı. Başqa sözlə, nailiyyət qazanılması motivasiyası öz təsirini göstərirdi. Yəni 60% müəllim uğursuzluqdan qaçmaq motivasiyasına üstünlük verirdi.

Beləliklə, stress situasiyasında uğursuzluqdan qaçma motivasiyası, intellekti "məhdudlaşdırır" (əgər belə demək mümkünsə). Məlum oldu ki, liderlərin əksəriyyətində (yəni maksimum dərəcədə bal toplayanlar) belə situasiyada nailiyyət qazanmağa ehtiyac motivi və risk etməyə meyil göstərmək öz təzahürünü tapmışdır.

Məlumdur ki, nailiyyət qazanmağa ehtiyac motivasiyası, daha dəqiq desək, onun bir forması olan uğursuzluqdan qaçmaq motivasiyası və ya uğur qazanmağa cəhd 3-13 yaşlar arasında formalaşır.

Yeni təlim texnologiyaları məlum olduğu kimi, intellektual sferanın inkişafı ilə yanaşı, həm də şagirdlərdə müvəffəqiyyət

qazanmağa cəhd motivasiyasının formalaşdırılmasına yönəlmişdir. Şagirdlərdə belə bir motivasiyanın formalaşması istiqamətlərindən biri də uşağın həvəsləndirilməsi mühitinin yaradılmasından ibarətdir.

III fəslin ikinci yarımfəslində sosial-psixoloji treninqlər barədə danışılır.

Təcrübə göstərir ki, ənənəvi metod – müəllimin şərhi, şagirdlərə şablon sualların verilməsi, ev tapşırıqlarının hazırlanması və s. heç də həmişə müsbət nəticə vermir. Bununla belə yeniyetmə və yuxarı sinif şagirdləri özünüdərkə, ünsiyyətə can atırlar. Şagirdlərin bu istəklərinin reallaşmasında müəllimdən onlarla əməkdaşlıq etmək, bərabərhüquqlu, aktiv tərəfdaş olması lazım gəlir. Təbii ki, burada sosial-psixoloji treninqlər özünəməxsus rol oynayır.

Treninq aktiv sosial-psixoloji təlim metodu olmaqla qrup formasında həyata keçirilir. O, son nəticədə kommunikativ maneəni, uyğun olmayan stereotipləri aradan götürməyə, şəxsiyyətlərarası münasibətləri optimallaşdırmağa, konfliktli situasiyaların aradan qaldırılmasına xidmət edir.

Hər bir konkret vəziyyətdə treninqin məqsəd və vəzifələri cəmiyyətdə qəbul edilmiş normalara uyğun olaraq həyata keçirilir. Burada hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaq mümkündür.

Bu deyilənləri nəzərə alaraq, biz treninqlərdən istifadə zamanı aşağıdakılara diqqət yetirdik. Birincisi, bu tip məşğələləri apararkən şagirdlərin təşəbbüskarlığı və müstəqilliyi inkişaf etdirilsin. Onlar özlərini və ətrafdakıları dərk etməyə yönəldilsinlər. İkincisi, məlumdur ki, istər ailədə, istərsə də müəllim-şagird münasibətlərində, xüsusən ünsiyyətlə bağlı problemlər yaşanır. Daha çoxu isə bir-birlərini dinləmək və anlamaq sahəsində problemlər özünü göstərir. Eyni zamanda özünü qarşısındakının vəziyyətində görmək indi xeyli çətinləşib. Sosial-psixoloji treninqlər vasitəsilə hesab edirik ki, bu göstərilənləri aradan qaldırmaq mümkündür.

Şagirdlərlə treninqlə bağlı proqram hazırlayarkən biz onlarla anket sorğusu keçirdik. Anket sorğusu 183 nəfər yuxarı sinif şagirdləri arasında keçirildi. Məhz bu sorğu vasitəsilə onların

ünsiyyət prosesində hansı çətinliklərlə üzləşdiyi meydana çıxmalı idi. Məlum oldu ki, yuxarı sinif şagirdləri bunun səbəbini özlərində yox, başqalarında görürlər. Daha çox ünsiyyət çətinlikləri yaşlılarla bağlı olurdu. “Onlar bizi başa düşmək istəmirlər”, “İstəyirlər ki, hər şey onların istədikləri kimi olsun” və s. Qeyd etmək istərdik ki, yuxarı sinif şagirdlərinin neqativizmi daha çox valideynlər və müəllimlərlə bağlıdır. Bu vəziyyət özünü, xüsusilə avtoritar üslublu müəllim və valideynlərlə göstərir. Şagirdlər hesab edirlər ki, yaşlılar onlarla hesablaşmaq, onların fikirlərinə hörmətlə yanaşmaq istəmirlər. Oxşar vəziyyət yaşıdlarla da baş verir, lakin bu müəyyən qədər gizli mahiyyət daşıyır.

Bəs sosial-psixoloji treninq nədir? Psixoloqlar bunun qrup işi vasitəsilə psixoloji təsir vasitəsi olduğunu qəbul edirlər. Treninq xüsusi təşkil olunmuş ünsiyyət formasıdır. Onun nəticəsində şəxsiyyətin inkişafı, kommunikativ vərdiş qazanılması və psixoloji yardım həyata keçirilir. Treninq, eyni zamanda stereotiplərin aradan qaldırılmasına, şəxsi problemlərin həll olunmasına kömək edir.

Təbii ki, bir treninq vasitəsilə bu deyilənlərin aradan qaldırılması mümkün deyil. Bununla bərabər, treninqlər vasitəsilə psixikada, davranışda, ünsiyyətdə bir çox neqativ vəziyyəti dəyişmək mümkündür. Burada ünsiyyətlə bağlı pozitiv nəticələrə nail olmaq mümkündür.

Adi həyatda ünsiyyət qurmağı bacarmayan insanlar bir sıra çətinliklərlə üzləşirlər. Ünsiyyətə hazır olmayan şəxslərin hətta psixikasında problemlər yaranır. Ünsiyyət çətinlikləri olan şəxslər lazım gəldikdə ətrafdakı adamlara kömək üçün belə müraciət edə bilmirlər.

Məşhur Amerika psixoloqu D.Karnegi ünsiyyət qurmaq zamanı dinləməyi bacarmağın necə vacib olduğunu öz nümunəsində göstərir. Məclislərdən birində Karnegi məşhur bir bioloqla üzbəüz oturur. Bioloq bitkilər aləmindən, heyvanlardan elə maraqla danışır ki, Karnegi böyük həvəs və heyrətlə onu dinləyir. O, heç bir söz demir, sadəcə dinləyir. Məclis başa çatdıqdan sonra bioloq ev sahibinə bildirir ki, Karnegi çox gözəl həmsöhbətdir. Halbuki, söhbət müddətində Karnegi sadəcə yaxşı dinləyici olmuşdu.

Treninqlərdə isə iştirakçıların özünə və qrup üzvlərinə inamı artır. Məşğələlər zamanı hər kəs özünə qarşı diqqət və hörmət görür. Eləcə də özü başqalarına qarşı bu cür davranır. Qrup üzvləri aktiv şəkildə müxtəlif növ ünsiyyəti sınaqdan keçirir, əvvəlcə çətinlik çəkdiyi kommunikativ ünsiyyət sahəsində vərdiş və bacarıq qazanır. Bununla da psixoloji rahatlıq və müdafiə qazanmış olur. Başqa sözlə, treninqlər vasitəsilə şagirdlər cəmiyyət həyatının aktiv üzvü olmaq imkanı əldə edirlər.

Sosial-psixoloji treninqin vəzifəsi hər bir iştirakçıya özünü təsdiq edə bilmək vərdişi qazandırmaqdır.

Özünütəsdiqin isə psixoloqlar beş istiqamətini müəyyənləşdirmişlər:

1. Hər bir iştirakçı digər üzvlərin davranış və ünsiyyət modelindən özü üçün nümunə götürə bilir. Sanki özü-özünə kənardan nəzər salmaq imkanı qazanır. Özünü kimlərləsə müqayisə edir, kimlərəsə oxşamağa çalışır.

2. Şagird digər üzvlərdən özü haqqında informasiya alır. Yəni ətrafdakılar onun hissləri, davranışı barədə mühakimə yürüdürlər.

3. Şagird öz davranışının, ünsiyyətinin nəticəsini görür və qiymətləndirir. Hər bir iştirakçının özünüqiymətləndirməsində dəyişiklik baş verir.

4. Şagird öz emosiyalarını, hisslərini, davranışını digərləri ilə müzakirə edir. Başqa sözlə, şagird özünün emosional vəziyyəti, mövqeyi və s. barədə fikir mübadiləsi aparır. Bu mənada treninqlərin digər iş formalarından üstünlüyü ondadır ki, şagird öz "Mən"ini daha aydın və düzgün dərk edir.

5. Şagird özünü xarici görünüşü və vəziyyətinə uyğun dərk edir. Yəni özünün fiziki "mən"ini tanıyır. Treninqlər prosesində iştirakçılar özünün xarici görünüşünü necə varsa, eləcə də qəbul edir. Bununla da, özünün imkanlarını inkişaf etdirmək fürsəti qazanır.

Treninqlərin mühüm humanist ideyası onunla bağlıdır ki, burada təzyiq, məcburetmə yoxdur. Əksinə, şagirdəköməklik edilir ki, çatışmazlıqlarını aradan qaldıra bilsin, şən və rahat olsun, ən əsası, ətrafdakı insanlarla ünsiyyət qurmağı bacarsın.

Sosial-psixoloji treninqlərin daha səmərəli keçirilməsi üçün təşkilatçılar onun məqsədini aydın və dəqiq bilməlidirlər. Treninqin başlıca məqsədi şəxsiyyətin inkişaf etdirilməsi olmalıdır. Bu əsas məqsədlə yanaşı, bir sıra köməkçi məqsədlər də nəzərdə tutulmalıdır və bunlar bir-birləri ilə vəhdətdə olmalıdır. Bunlara aşağıdakılar daxildir: a) iştirakçıların sosial-psixoloji səriştəsini artırmaq və ətrafdakı insanlarla ünsiyyət və münasibəti yaxşılaşdırmaq; b) iştirakçıların sosial fəallığının yüksəldilməsi, onların öz həyat tərzini daha mənalı və sağlam qurmalarının inkişaf etdirilməsi, eləcə də ətrafdakı insanların davranışına yaxşı mənada təsir edə bilmək; c) psixoloji mədəniyyətin səviyyəsini yüksəltmək.

Sosial-psixoloji treninqlərin məqsədinin həyata keçirilməsi üçün bir sıra konkret vəzifələr qarşıya qoyulmalı və həll edilməlidir:

1. Müəyyən sosial-psixoloji bilikləri mənimsəmək;
2. Özünü və başqalarını adekvat şəkildə dərk etmək;
3. Şagird şəxsiyyətinin diaqnostika və korreksiyasını həyata keçirmək, davranış və münasibətlərin, ünsiyyətin qurulmasına mane olan xüsusiyyətləri aradan qaldırmaq;
4. Şəxsiyyətlərarası münasibət və təsirlərin səmərəliliyinin artırılması üçün hər bir iştirakçının fərdi keyfiyyətlərini nəzərə almaq.

Şagird qrupları ilə keçirilən treninqlər zamanı aşağıdakı prinsiplərə əməl olunması zəruridir. İlk növbədə, qarşılıqlı təsir baxımından dialoqun qurulması vacibdir. Başqa sözlə, qarşılıqlı ünsiyyət prosesində, şəxsiyyətlərarası münasibətlərin qurulması zamanı tərəflərin bərabərliyi qorunmalıdır. Bunlar isə qarşılıqlı inama və hörmətə əsaslanmalıdır. Əgər iştirakçılardan birinin və ya bir neçəsinin üstünlüyü baş verərsə, onda əsl dialoq baş tutmur və bu, əsasən, monoloqla əvəz olunur. Bu isə treninqin məqsəd və mahiyyətinə ziddir. Digər bir məsələ treninq iştirakçıları arasında əks əlaqənin yaranması ilə bağlıdır.

Təlim-tərbiyə prosesində müasir təlim texnologiyalarından istifadə həm qarşılıqlı münasibətləri tənzimləyir, şəxsi keyfiyyətləri yaxşılaşdırır, həm də təlimin səmərəliliyini yüksəldir.

**Dissertasiyanın işinin əsas elmi müddəaları dərc olunmuş aşağıdakı elmi məqalələrdə və tezislərində öz əksini tapmışdır:**

1. Şagirdlərin rabitəli nitqinin inkişafında bədii ədəbiyyatın rolunun psixoloji xüsusiyyətləri, Elmi əsərlər, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, №3, – 2014, – səh. 160-164.
2. Müəllim-şagird münasibətlərində sinif rəhbərinin rolunun psixoloji xüsusiyyətləri, Elmi əsərlər, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, cild 55, №4, – 2014, – səh. 112-117.
3. Təlim prosesində yarana bilən emosional mühitə münasibətdə müəllim obrazı, "Azərbaycanda təhsil quruculuğunun prioritet istiqamətləri: müasir yanaşmalar" Beynəlxalq elmi konfransın materialları, Naxçıvan şəhəri, 5-6 iyun 2015-ci il, – səh.291-292.
4. Ailə mühitinin şagird şəxsiyyətinin formalaşmasına təsirinin psixoloji xüsusiyyətləri, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti, 1/2015, – səh. 194-199.
5. Qloballaşmanın müəllim-şagird münasibətlərinə təsirinin psixoloji xüsusiyyətləri, Psixologiya jurnalı, – Bakı-2015, BDU, – səh. 54-62.
6. Müasir dövrdə uşağın şəxsiyyətinin formalaşmasında televiziyanın təsirinin psixoloji xüsusiyyətləri, "Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr" mövzusunda Respublika Elmi Konfransının materialları, – Bakı, – 16 dekabr 2015, – səh. 47-48.
7. Pedaqoji prosesdə müəllim-müəllim münasibətlərinin psixoloji xüsusiyyətləri, Elmi əsərlər, cild 83, №1, 2016, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, – səh. 145-150.
8. Роль методов оценивания и учет психологических особенностей учашихся для повышения качества урока, Общество: социология, психология, педагогика; научный журнал, – 2016, №5, – səh. 40-44.

9. Müəllimin nitqindəki kinayənin və şagirdlər arasında müqayisənin aparılmasının təlim prosesinin keyfiyyətinə təsiri, Tədris prosesinin təkmilləşdirilməsi və müair təhsil konsepsiyaları, Beynəlxalq elmi konfransın materialları, – Naxçıvan şəhəri, – 16-17 dekabr 2014, – səh. 143-145.
10. The Role of Globalization in Formation of Pedagogical Communication Sino-US English Teaching, volume 13, number 10, October 2016 (Serial Number 154), David Publishing Company, – səh. 43-46.
11. Teacher-Pupil Relationship in Implementing Modern Teaching Technologies Sino-US English Teaching, volume 14, number 3, – march 2017 (Serial Number 159), David Publishing Company, – səh.20-24.

Dissertasiyanın müdafiəsi 31 yanvar 2022-ci il tarixində $14^{00}$-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı şəhəri, Zahid Xəlilov küç, 23. Əsas bina.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 dekabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.12.2021

Kağızın formatı: A5

Həcm: 40935

Tiraj: 100 nüsxə